# Milli mətbuatın 140 illiyi münasibətilə tədbir keçirilib




Dünən Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Azərbaycan milli mətbuatının yaranmasının140 illiyi münasibətilə tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, 140 il ərzində milli mətbuatımız tarixi yol keçib. Azərbaycan mətbuatının yaranmasının 140 illiyi ilə bağlı dövlət başçısı tərəfindən sərəncam verilib. Hazırda bununla əlaqədar respublikamızda müxtəlif tədbirlər keçirilir.

O daha sonra deyib ki, "Əkinçi"dən başlayaraq milli mətbuatımız xalqımızın maariflənməsində böyük rol oynayıb. Azərbaycan mətbuatı həm Xalq Cümhuriyyəti, həm də sovet dövründə milli maraqlarımıza xidmət edib. Ümummilli lider Heydər Əliyev mətbuata çox böyük diqqət və qayğı göstərib. Ulu öndərin bu qayğısı yalnız müstəqillik illərində deyil, Azərbaycana rəhbərlik etdiyi sovet dövründə də açıq-aşkar hiss olunub. Bu qayğının nəticəsidir ki, ulu öndər Azərbaycan mətbuatının dostu kimi jurnalistlər tərəfindən yüksək ada layiq görülüb.

"Prezident İlham Əliyev də mətbuata diqqət və qayğını ön planda saxlayır. Azərbaycan mətbuatına dövlət qayğısı ilə bağlı konsepsiya var" deyən Mübariz Qurbanlı bildirib ki, mətbuatın dünya miqyasında rolu getdikcə artır, ictimai fikrə təsiri genişlənir. Mətbuat cəmiyyətin güzgüsüdür. Cəmiyyət nədirsə, mətbuat da onu özündə əks etdirir. Amma bəzən görürsən ki, güzgünün özü səhvdir. Yəni elə güzgülər var ki, insanı olduğu kimi yox, başqa-başqa formalarda göstərir. Yeni Azərbaycan Partiyası həmişə mətbuatla sıx əməkdaşlıq edir.

YAP İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov isə bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonrakı dövrdə mətbuatda kifayət qədər peşəkar kadrlar yetişib: "Keçmiş SSRİ-də 14 respublika ilə müqayisədə Azərbaycanın müstəqillik qazanması prosesi çox ağır oldu, torpaqlarımız işğala məruz qaldı, separatizm baş qaldırdı. Mətbuat xalqın Azərbaycan ərazilərinin müdafiəsinə səfərbər olunmasında, dövlətçiliyimizin qorunmasında mühüm rol oynayıb".

Ulu öndər Heydər Əliyevin mətbuata qayğısı, bu istiqamətdə gördüyü işlərə toxunan Siyavuş Novruzov Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə işlərin davam etdirildiyini vurğulayıb: "I Avropa Oyunları da göstərdi ki, mətbuatımız ümumxalq maraqları digər maraqlardan üstün tutaraq, Azərbaycanda keçirilən bu möhtəşəm tədbirə qarayaxmalara, erməni lobbisindən maliyyələşən dairələrə və sapı özümüzdən olan baltalara qarşı birmənalı mövqe ortaya qoydu. Siyasətçilərin də öz proqramlarını seçicilərə çatdırmasında mətbuatın rolu əvəzedilməzdir. Qarşıdan gələn parlament seçkiləri Azərbaycan mətbuatının 140 illiyinə təsadüf edir. İnanırıq ki, 140 illik təcrübə parlament seçkilərində təbliğat-təşviqat kampaniyasının qurulmasında özünü göstərəcək. Həm də qarşıdan Ramazan bayramı gəlir, bu münasibətlə xalqımızı, jurnalistlərimizi təbrik edirik".

Tədbirin sonunda jurnalistlər mükafatlandırılıb. Mükafat alanlar sırasında "Azərbaycan" qəzetinin də əməkdaşı var.

***"Azərbaycan"***